Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər– N.F.Nəsibova, R.N.Hüseynəliyev

etiraz verən iddiaçı FKP "SOYUZPLODOIMPORT"-n /ünvan:107139, Moskva şəh, Orlikov döngəsi, ev 1/11, (RU)/ nümayəndəsi patent müvəkkili R.K.Orucovun,

qarşı tərəfin "ZHS IP Worlwide Sarl" */ünvanı- Avenue Reverdil 14, 1260 Nyon, Switzerland (CH)/* nümayəndəsi patent müvəkkili V.F. Əfəndiyevin iştirakları ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

27.12.2017 il tarixdə "ZHS IP Worlwide Sarl" hüquqi şəxsə məxsus olan **"ELIT FROM THE HOUSE OF STOLI"** adlı əmtəə nişanının 33-cü sinifin əmtəələri üzrə 2017 0715 saylı qeydiyyatına qarşı FKP "SOYUZPLODOIMPORT"-n nümayəndəsi patent müvəkkili R.K.Orucov tərəfindən Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsinda qeyd edilir ki, FKP "SOYUZPLODOİMPORT" (RU) Azərbaycan Respublikasında qeydiyyata alınmış bir çox əmtəə nişanlarının sahibidir, o cümlədən:

- N 980427, "STOLICHNAYA", sinif: 33;
- N 2003 0842, "STOLICHNAYA", sinif: 33;
- IR 571311, "STOLICHNAYA", sinif: 33;
- IR 828377, "STOLICHNAYA KRISTAL", sinif: 33.

İddiaçı-FKP "SOYUZPLODOİMPORT" (RU) FKP hesab edir ki, **"ELIT FROM THE HOUSE OF STOLI"** (2017 0715 qeydiyyat) adlı əmtəə nişanı "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci və 6-cı maddələrinin pozulması ilə qeydiyyata alınmışdır və aşağıdakı əsaslarla bu qeydiyyatın ləğv edilməsini xahiş edir.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin "a" bəndinə əsasən Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələrə və ya xidmətlərə aid başqa şəxsin adına qeydə əvvəl alınmış və ya qeydə alınmaq üçün iddia edilmiş əmtəə nişanlarının qeydə alınmasına yol verilmir. "ELIT FROM THE HOUSE OF STOLI" əmtəə nişanına (2017 0715 saylı qeydiyyat) "STOLICHNAYA" sözü ilə qarışdırılacaq dərəcədə oxşar "STOLI" söz işarəsi daxildir. "STOLI" söz "STOLICHNAYA" sözünün bir hissəsidir və "Stolichnaya" söz işarəsinin qısaldılmış adı kimi istifadə olunur. "STOLI" sözü "STOLICHNAYA" sözünün bir hissəsi ilə oxşarlığı təsadüfi deyil və onun qısa yazılışıdır, onunla təsdiqlənir ki, Rusiya Federal məhkəmə ekspertizasının Mərkəzi tərəfindən keçirilmiş Ekspert Tədqiqatı buna şahidlik edir və bu qərar müvafiq Aktla tərtib edilmişdir. Həmçinin onu da nəzərə almaq lazımdır ki, 2000-ci ildə Azərbaycana yayılan "STOLI" əmtəə nişanı 739600 N-li beynəlxalq qeydiyyata alınmışdır (iddiaçı: "ZHS IP Europe Sàrl", (CH)). Azərbaycan Respublikasında aparılan ekspertiza nəticəsinə əsasən "STOLI" əmtəə nişanının qeydiyyatına dair imtina qərarı verilmişdir. İstinad "Stolichnaya" (980427saylı qeydiyyat) əmtəə nişanını ilə oxşar olunması. Nəticədə "STOLI" adlı əmtəə nişanı Azərbaycan Respublikasında qeydiyyata alınmamışdır.

Bundan başqa, 2006-cı ildə Azərbaycanın patent idarəsinə tərkibində "Stoli" söz işarəsi olan əmtəə nişanlarının qeydiyyata alınması üçün №№ 2006 0950, 2006 0951, 2006 0952, 2006 0953, 2006 0954 və 2006 0955 ərizələri verilmişdir. Bütün bu ərizələr üzrə ekspertiza N 2003 0842 saylı "STOLICHNAYA" ilkinlik qeydiyyatına əsasən iddiaçıya qeydiyyatdan imtina haqqında bildiriş göndərmişdir. Nəticədə iddiaçı bu ərizələr üzrə kargüzarlıqdan imtina etmiş və bu əmtəə nişanları qeydiyyata alınmamışdır.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin "f" bəndinə bəndinə əsasən, əmtəələrin və ya xidmətlərin xüsusiyyətləri, keyfiyyəti və ya coğrafi mənşəyi ilə əlaqədar istehlakçını yanılda bilən əmtəə nişanları qeydə alına bilməz. Lakin o səbəbdən ki, "ELIT FROM THE HOUSE OF STOLI" əmtəə nişanına (2017 0715 saylı qeydiyyat) "STOLICHNAYA" nişanı ilə qarışdırılacaq dərəcədə oxşar olan "STOLI" söz işarəsi mövcuddur, bu məhsulun istehlakçıları fərz edə bilərlər ki, bu, FKP-nin "STOLICHNAYA" brendinin yeni məhsuludur.

Göstərilən dəlillər aşkar şəkildə onu göstərir ki, "ELIT FROM THE HOUSE OF STOLI" əmtəə nişanının 2017 0715 qeydiyyatı "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci və 6-cı maddələri pozularaq həyata keçirilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq iddiaçı, "ELIT FROM THE HOUSE OF STOLI" əmtəə nişanının N 2017 0715 saylı qeydiyyatını ləğv edilməsini Apellyasiya şurasından xahiş edir.

Qarşı tərəfin nümayəndəsi etiraz ərizəsi ilə tanış olaraq cavabında aşağıdakıları bildirir. İddiaçı tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanunun 5-ci və 6-cı maddələrinə istinad edərək "ELIT FROM THE HOUSE OF STOLI" əmtəə nişanının ləğv edilməsi tələbini əsassız hesab edərək tələbin həmin qanunun göstərilən müddəalarına uyğun olmamasını qeyd etmişdir. "STOLI" sözü uydurma bir sözdür və İngilis dili söz lüğətinə nəzər salsaq görmək olar ki, bu lüğətin tərkibində belə bir söz mövcud deyil *(bax: "Большой Англо- Русский Словарь" под общим руководством доктора финологических наук, профессора И.Р. Гальперина издание третье, стреотипное. Москва.Русский язык 1979 г.) (bax: Oxsford Advanced Learner's Dictionary of Current English. AS Hornby-Oxford University Press 1988)*. "STOLI" sözünün, həmçinin rus dili lüğətində mövcud olması aşkarlanmamışdır. "STOLI" sözünün, rus dili versiyası

“СТОЛИ” *(bax: “Словарь русского языка-около 57000 слов” Под редакцией члена-корреспондента АР СССР Н. Ю Шведовой. 20-е издания, стереотипное Москва «Русский язык»1988) (bax: «Большая Советская Энциклопедия» Главный Редактор Ф. М. Прохоров. Москва Издательства «Советская энциклопедия» 1978. Третье издания; в 30 томах ).* Qeydiyyata alınmış “ELIT FROM THE HOUSE OF STOLI” nişanı tamamlanmış bir ifadədir, qarşı qoyulmuş nişan isə “STOILİCHNAYA” sözündən ibarətdir. Digər tərəfin “STOLICHNAYA” sözünü qısaldılmış “STOLI” sözü kimi qələmə verməsi və daha sonra bu sözü “ELIT FROM THE HOUSE OF STOLI” nışanının tərkibində olan “STOLI” sözünə qarşı qoyulması məntiqə uyğun deyil. Bir qayda olaraq nişanların, o cümlədən söz nişanlarının oxşarlıq nöqteyi nəzərdən müqayisəsi, nişanların bütövlüyü nəzərə alınmaqla aparılmalıdır, beləki, istehlakçılar əmtəələrin üzərində yerləşdirilmiş nişanların elementlərini, ayrı-ayrı elementlər toplusu kimi deyil, vahid və bütöv bir nişan kimi qəbul edilir.

«Ümümdünya İntelektual Mülkiyyəti Təşkilatının (ÜİMT) Tövsiyələri» kitabçasında deyilir ki, «Nişanların müqayisəsi zamanı əldə edilmiş ilk təsurat ən əsas sayılır». İstehlakçıların nişanları qavramasında ən əsası ilk təsuratdır, istehlakçılar bir qayda olaraq əmtəə nişanını onların yaddaşında saxlanılan obrazla müqayisə edirlər. Buna görə də, əgər müqayisə edilən nişanlardan irəli gələn ilk təsurat oxşarlıq təsuratıdır və sonraki təhlil ayrı-ayrı elementlərin müxtəlifliyi sayəsində nişanların fərqliliyini aşkar edərsə, bu təqdirdə nişanların oxşarlığının qiymətləndirilməsi zamanı ilk təsurata üstünlük vermək lazımdır. Əmtəə nişanlarının oxşalığının yoxlanılmasının təyin edilməsi zamanı ikinci əsas amil ondan ibarətdir ki, onlar bütövlükdə müqayisə edilməlidirlər və <u>onların ümumi elementlərinə böyük əhəmiyyət verilməlidir</u>, hansılar ki, fərqliliyi nəzərə almadan, orta istehlakçı tərəfindən gözə çarpmayan, yalnış təsurat yarada bilər.

Qarşı tərəfin nümayəndəsi patent müvəkkili V.F. Əfəndiyevin tələbinə görə işin baxılması təxirə salınmışdır. Belə ki, iddiaçı tərəfin iddia ərizəsinə qoşulmuş sənədlərin azərbaycan dilində notarial təsdiq edilmiş surətlərinin Apeliyasiya şurasına təqdim edilməmişdir. İddiasına əsaslı və tutarlı cavab hazırlanması üçün qanuni-nöqteyi nəzərdən məqsədə uyğundur.

Sənədləri təqdim edildikdən sonra tərəflərin razılığı əsasında işin baxılması 12.04.2018 il tarixinə keçirilərək baxılmışdır.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən iddiaçının nümayəndəsi, patent müvəkkili R.K.Orucovun və qarşı tərəfin nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyevin çıxışlarını dinləyib, hesab edir ki, etiraz təmin olunmalıdır.

İddiaçı FKP “SOYUZPLODOIMPORT” tərəfindən Rusiya Federasiyası Ədliyyə Nazirliyi Nəzdində Rusiya Federal məhkəmə Ekspertizası Mərkəzi Dövlət Müəssisəsinin /ünvanı-Preçistenstenskaya nab., 15, 1, Moskva, 119034/ 3224/24 A nömrəli 15 noyabr 2005-ci il tarixli Ekspert tədqiqatı aktı Apellyasiya şurasına təqdim edilmişdir. Həmin aktın nəticə hissəsində qeyd edilir ki:

"STOLI" sözünün hərflərin ardıcılığı "STOLICHNAYA" sözünün qısa variantını təmsil edir;

"STOLI" və "STOLICHNAYA" sözləri sinonim kimi istifadə edilir;

"STOLI" və "STOLICHNAYA" sözləri fonetik və semantik nöqteyi cəhətdən oxşardır.

Apellyasiya şurası müəyyən etdi ki, FKP "SOYUZPLODOIMPORT" (RU) məxsus "STOLICHNAYA" adı altında alkoqollu içkilər (33-cü sinif) Rusiya Federasiyasında istehsal olunur və Azərbaycan Respublikası ticarət fəaliyyətində uzun müddət ərzində geniş istifadə edilir.

“ZHS IP Worlwide Sarl” (CH) adına "ELIT FROM THE HOUSE OF STOLI" adlı əmtəə nişanınının 33-cü sinifin əmtəələri üzrə (alkoqollu içkilər) 2017 0715 nömrəli qeydiyyata alınması və Azərbaycan Respublikası ərazisində istifadə edilməsi zamanı alkoqollu içkilərin xüsusiyyətləri, keyfiyyəti ilə əlaqədar istehlakçını yanılda bilər. Belə ki, "ELIT FROM THE HOUSE OF STOLI" (CH) sözlərin birləşməsində əsas **element kimi “STOLI” sözü**

**çıxış edir. “STOLI” sözü "STOLICHNAYA" sözünün qısadılmış formasıdır və alkoqollu içkilərə aidiyyətini əks etdirir (göstərir).**

**“STOLI” sözünün əmtəə nişanı qismində qeydiyyata alınmaması barədə Azərbaycan Respublikası öz mövqeyini bildirmişdir. “ZHS IP Europe Sarl” məxsus** ***/ünvanı- Avenue Reverdil 14, 1260 Nyon, Switzerland (CH)/*** **“STOLI” əmtəə nişanının 32-ci, 33-cü və 35-ci siniflərin əmtəələri və xidmətləri üzrə 29.06.2000 il tarixli 739600 nömrəli qeydiyyatının Azərbaycan Respublikası ərazisinə şamil edilməsi barədə 11.04.2001 il tarixində rədd qərarı verilmişdir. Həmin qərar qüvvəyə minmişdir** ***(2002/12 Gaz, 25.07.2002 il tarixində dərc edilmişdir)*****.** *Belə olan halda* “ZHS IP Worlwide Sarl” (CH) adına "ELIT FROM THE HOUSE OF STOLI" adlı əmtəə nişanının 33-cü sinifin əmtəələri üzrə (alkoqollu içkilər) 2017 0715 nömrəli qeydiyyata alınması düzgün deyil. Belə ki, əmtəə nişanının tərkibində **“Stoli” sözü tək və ya başqa sözlər ilə yanaşı olaraq** digər şəxsin adına qeydiyyata alınması qarışdırma ehtimalı yaradır.

“Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 3-cü bəndində qeyd edilir ki, əmtəə nişanı fərqlənmə qabiliyyətinə malik olmaqla yanaşı, əmtəənin mənşəyini istehlakçıya bildirməli, müxtəlif istehsalçılar tərəfindən istehsal olunan əmtəələri bir-birindən fərqləndirməlidir.

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının 5-ci maddəsinin “f” bəndinin müddəalarına görə, *əmtəələrin və ya xidmətlərin xüsusiyyətləri, keyfiyyəti və ya coğrafi mənşəyi ilə əlaqədar istehlakçını yanılda bilən əmtəə nişanları qeydə alınmasına yol verilmir.*

Apellyasiya şurası hesab edir ki, **“ZHS IP Worlwide Sarl” (CH) adına "ELIT FROM THE HOUSE OF STOLI" əmtəə nişanını** Azərbaycan Respublikasında **2017 0715 nömrəli qeydiyyata** alınması yuxarıda sadalanan qanuni əsaslara zidd olaraq həyata keçirilmişdir və ləğv olunmalıdır.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 3-cü bəndini, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu maddənin 1-ci hissəsinin, 6-cı maddəsinin 1-ci hissəsinin “a”, “b” bəndlərini, 5-ci maddəsinin “f” bəndini rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. “ZHS IP Worlwide Sarl” hüquqi şəxsə məxsus olan **“ELIT FROM THE HOUSE OF STOLI”** adlı əmtəə nişanının 33-cü sinifin əmtəələri üzrə 2017 0715 saylı qeydiyyatına qarşı FKP “SOYUZPLODOIMPORT”-n nümayəndəsi patent müvəkkili R.K.Orucov tərəfindən Apellyasiya şurasına etiraz ərizəsi əsaslı hesab edilsin və iddia təmin edilsin.
2. **“ELIT FROM THE HOUSE OF STOLI”** adlı əmtəə nişanı 33-cü sinifin əmtəələri üzrə 2017 0715 nömrəli qeydiyyatı etibarsız sayılsın.
3. Apellyasiya şurasının qərarının alındığı tarixdən 3 ay ərzində Azərbaycan Respublikasının İnzibati Prossesual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

R.N.Hüseynəliyev